Azərbaycan, № 271.- S.20.
12 dekabr 2023-cü il



# Azərbaycan qazının ixrac coğrafiyası genişlənir

## Bu, yeni interkonnektorlar vasitəsilə gerçəkləşir

Yeni çağırışlar qarşısında Avropada Azərbaycan qazına tələbatın artması və bu ehtiyacın ödənilməsi kompleks tədbirlərin görülməsini gündəmə gətirib. Bunlardan biri də müvafiq ixrac infrastukturunun yaradılmasıdır.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, bu istiqamətdə irəliyə doğru addımların atılması üçün TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP (Trans-Adriatik Qaz Boru Kəməri) genişləndirilməlidir. Bizim digər Avropa boru kəmərlərinə də çıxışımız olmalıdır. Avropada interkonnektorların sayı mütləq artırılmalıdır. Bütün bu məsələlər həllini bir-birilə əlaqələndirilərək tapmalıdır.

İşlər də məhz belə irəliləyir. Azərbaycan qazına tələbat artdıqca nəql yolları da şaxələnir, marşrutlar çoxaldıqca ixracın coğrafiyası da genişlənir. Budur, Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun da açılışı oldu.

Serbiya-Bolqarıstan Qaz İnterkonnektoru istismara verilməklə "Cənub qaz dəhlizi"nə inteqrasiya olunur. Serbiya və Bolqarıstan arasında bu yeni xəttin tikintisinə bu il fevralın 1-də başlandı və tamamlanması da nəzərdə tutulduğu vaxt baş verdi. İnterkonnektoru Azərbaycan Prezidenti İlham Əliyev, Serbiya Prezidenti Aleksandar Vuçiç, Bolqarıstan Prezidenti Rumen Radev və Avropa İttifaqının daimi nümayəndəliyinin rəhbəri Emmanuel Jofre işə saldılar. Bu faktın özü də bir daha sübut edir ki, möhtəşəm "Cənub qaz dəhlizi" layihəsinin təşəbbüskarı və aparıcı qüvvəsi məhz Azərbaycandır.

Yeni interkonnektorun Serbiyanın Niş şəhərində keçirilən açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev dedi: "Azərbaycan 2027-ci ilə qədər Avropaya göndərilən qazın həcmini iki dəfə artırmalıdır. Artıq rəqəmlər onu göstərir ki, biz inamla bu hədəfə doğru gedirik. 2021-ci ildə bizim Avropa məkanına qaz ixracımız 8 milyard kubmetrdən bir qədər çox olmuşdursa, bu il bu, təxminən 12 milyard kubmetrə çatacaq. Bu da Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil edir. Bizim çox genişmiqyaslı başqa planlarımız var. Azərbaycanın bütövlükdə enerji strategiyası uğurla icra edilir. Bizim tərəfimizdən irəli sürülmüş və icra edilmiş layihələr Avropanın və Asiyanın - Avrasiyanın enerji xəritəsini böyük dərəcədə yenidən tərtib etmişdir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft kəmərləri bu gün Azərbaycan neftini Aralıq dənizinin və Qara dənizin bazarlarına çatdırır". Cənub qaz dəhlizi" - uzunluğu 3500 kilometr olan nəhəng infrastruktur layihəsi Avropanın enerji təhlükəsizliyinə çox böyük töhfə verir. Təsadüfi deyil ki, Avropa Komissiyası, onun yüksəkvəzifəli şəxsləri Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı kimi dəyərləndirirlər".

Dövlətimizin başçısı çıxışında xatırlatdı ki, Azərbaycanın Bolqarıstana qaz təchizatı iki il bundan əvvəl başlamışdır. 2021-ci ildə 270 milyon kubmetr, keçən il 500 milyon kubmetrdən bir qədər çox qaz təchiz edilmişdir. Bu il isə bu rəqəm 1 milyard kubmetrə yaxın olacaq.

Xatırladaq ki, 2022-ci il oktyabrın 1-də Azərbaycan təbii qazını Bolqarıstana nəql edən Yunanıstan-Bolqarıstan İnterkonnektoru (IGB) istifadəyə verildi. IGB-nin reallaşması TAP-ın inkişafında mühüm bir mərhələnin başlanğıcı, "Cənub qaz dəhlizi"nin yeni qollarla şaxələnməsinin göstəricisi kimi dəyərləndirilir. Bu interkonnektorun açılışı Bolqarıstanın, ümumən Cənub-Şərqi Avropanın şaxələndirilmiş enerji təchizatında, istehlakçıların sərfəli və təmiz enerjiyə çıxışında strateji əhəmiyyətli hadisədir. Başqa sözlə, IGB qarşıdakı illərdə "Cənub qaz dəhlizi"nin genişləndirilməsi istiqamətində yeni layihələrin müjdəçisidir.

Serbiya-Bolqarıstan Qaz İnterkonnektoru ixrac infrastrukturunun zənginləşməsi üçün atılan növbəti uğurlu addımdır. Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Niş şəhərində Azərbaycanın media nümayəndələrinə müsahibəsində söyləyib ki, bu onlar üçün çox vacib bir layihədir. O, həmçinin qeyd edib: "Bu, həm də Serbiyanın Niş, Dimitrovqrad, Bela Palanka və Pirot kimi mühüm şəhərlərinin enerji təhlükəsizliyini möhkəmləndirəcək. Bizim gələcəkdə 6 və ya 7 LNG terminalından qaz almaq imkanımız da olacaq ki, bu da Serbiyanın ümumi enerji təhlükəsizliyində mühüm rol oynayacaq".

Bolqarıstan Prezidenti Rumen Radev də baş verən hadisəni yüksək dəyərləndirib: "Bu gün Serbiyada interkonnektorun açılış mərasimini edirik. Yalnız Serbiya deyil, həmçinin regionun digər ölkələri də Azərbaycandan gələn qaza, həmçinin yeddi terminala, Aralıq dənizindəki Elengi terminalına və təbii ki, Solidarity Ring təşəbbüsünə, Bolqarıstandakı Çidan adlı saxlama yerinə çıxış əldə edib. Biz hazırda Bolqarıstandakı infrastrukturu genişləndiririk və bunun sayəsində Qərbi Avropa qaz ehtiyatlarına da çıxış əldə edəcəyik. Biz bu gün sübut edirik ki, yalnız birgə səylər nəticəsində, ortaq istəyə əsasən iqtisadi inkişaf əldə edə, daha yaxşı, daha təhlükəsiz gələcəyə nail ola bilərik. Digər önəmli məsələ isə odur ki, biz infrastrukturun inkişafı nəticəsində daha böyük nailiyyətlər əldə edəcəyik".

Avropa İttifaqının Serbiyadakı daimi nümayəndəliyinin rəhbəri Emmanuel Jofre bildirib ki, Aİ bu layihəyə 50 milyon avroluq qrant, Avropa İnvestisiya Bankı isə 25 milyon avro məbləğində imtiyazlı kredit ayırıb: "Bundan əlavə, biz Bolqarıstan ərazisində interkonnektorun tikintisinə 20 milyon avro ayırmışıq. Bu mühüm mərhələ Serbiya vətəndaşlarının həyat şəraitini yaxşılaşdırmaq məqsədilə Avropa İttifaqının enerji sektorunda bu ölkəyə verdiyi ümumi dəstəyin bir hissəsidir. Biz Bolqarıstanı Serbiya ilə, Serbiyanı Avropa İttifaqı ilə birləşdiririk. Bu baxımdan bu infrastruktur Serbiya və Avropa İttifaqı üçün strateji əhəmiyyət kəsb edir".

Beləliklə, interkonnektorların sayı artır. Azərbaycan qazının Balkan ölkələrinə nəql olunması üçün İon-Adriatik qaz kəmərinin də tikintisi nəzərdə tutulub. Bu, TAP-ın davamı olacaq, Albaniyadan keçərək Azərbaycan qazını Xorvatiya, Monteneqro, Bosniya və Herseqovinaya çatdıracaq. Kəmərin tikintisinin 2025-ci ildə başa çatacağı gözlənilir.

Azərbaycan qazının ixrac perspektivlərindən danışarkən bir məsələni də xatırlatmaq yerinə düşər ki, bu il aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu" imzalanıb. Anlaşma memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün bu 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək. Azərbaycanın Albaniyada maliyyələşdirdiyi qazlaşdırma layihəsi tamamlandıqdan sonra bu ölkə də bizdən mavi yanacaq alacaq.

Prezidentimizin bu günlərdə Serbiyada dediyi kimi: "Gələcək planlarımız, təbii ki, qaz təchizatının coğrafiyasını daha da genişləndirməkdir və gələcəkdə Avropa məkanında yeni yaradılacaq interkonnektorlar vasitəsilə yeni ölkələrin bazarlarına çıxmaqdır".

*Flora SADIQLI,*
*"Azərbaycan"*